# Əlilliyi olan şəxslərin təhsil hüquqlarının müdafiəsi diqqət mərkəzindədir

İyunun 20-də Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə bir məsələ - "Məhkəmələr və hakimlər haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Dövlət rüsumu haqqında", "Əmək pensiyaları haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Dəniz limanları haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi daxil edilib.

Gündəliyin təsdiqindən sonra Bəxtiyar Əliyev qanun layihəsinin komitənin profilinə uyğun baxılacaq 3-cü, 10-cu, 11-ci və 12-ci maddələri barədə məlumat verib. Komitə sədri bildirib ki, bu maddələrdə təhsillə bağlı qanunlara təklif olunan dəyişikliklər, əsasən termin dəqiqləşdirilməsi ilə bağlıdır və texniki xarakter daşıyır. Belə ki, dəyişikliklərdə "nitq qüsuru", "kar", "kor", "əqli cəhətdən geri qalanlar" kimi anlayışların müvafiq olaraq "nitq pozuntusu", "eşitmə qabiliyyəti tam məhdud olanlar", "görmə qabiliyyəti tam məhdud olanlar", "əqli geriliyi olanlar" sözləri ilə əvəzlənməsi təklif edilib.

Azərbaycanda həyata keçirilən sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətindən, yaradılan qanunvericilik bazasından söhbət açan komitə sədri müzakirəyə çıxarılan qanun layihəsinin əlilliyi olan şəxslərin hüquqlarının, xüsusən onların təhsil hüquqlarının müdafiəsinə yönəldiyini bildirib. Bəxtiyar Əliyev termin dəyişikliyinin sağlamlığı məhdud olan vətəndaşların şəxsiyyətinə toxunacaq və onların cəmiyyətə inteqrasiyasına maneçilik törədə biləcək anlayışlardan, müraciətlərdən və münasibətlərdən uzaqlaşmaq, onların inklüziv təhsilə və cəmiyyətə inteqrasiyası üçün maneəsiz mühit yaratmaq baxımından əhəmiyyətini vurğulayıb.

Qanun layihəsinin müzakirəsi zamanı Elm və təhsil komitəsi sədrinin müavini Musa Qasımlı, komitə üzvləri İsa Həbibbəyli, Eldar Quliyev, Aqiyə Naxçıvanlı, Etibar Əliyev, Kamilə Əliyeva, Pərvin Kərimzadə, Anar İsgəndərov, Müşfiq Məmmədli çıxış ediblər. Deputatlar qanun layihəsini əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, şəxsiyyətlərinin inkişafı və təhsilin bütün mərhələlərində təhsilə cəlb olunmaları baxımından əhəmiyyətini qeyd ediblər, dəyişikliklərlə bağlı təkliflərini və fikirlərini səsləndiriblər.

Müzakirələrin sonunda qanun layihəsi baxılmaq üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2022.-21 iyun.- S.4.